Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 78–87
https://doi.org/10.48445/p0860-7347-7719-u

Nəbi Xəzrinin dilində fonopoetik vasitələrin rolu

Qənirə Əsgərova [1]

XÜLASƏ

Fonopoetik vasitələr dedikdə, mənanı fonetik yolla yaradan və ya gücləndirən ifadə yolları başa düşülür. Bu vasitələr poetik dildə mərkəzi mövqe tutur, səs, məna və emosiyanın kəsişmə nöqtəsində fəaliyyət göstərərək estetik təsiri formalaşdırır, oxucunun qavrayışını leksik və ya qrammatik mənanın hüdudlarından kənara yönəldir. Dil vahidlərinin estetik və emosional funksiyanı yerinə yetirməsi poetik dilin əsas xüsusiyyətlərindəndir. Bu baxımdan, dilin fonetik quruluşu ilə məna arasında qarşılıqlı əlaqə bədii dilin formalaşmasında mühüm rol oynayır. Sözün səs tərkibi bədii mətndə təsadüfi deyil, o, semantik məzmunu gücləndirir, emosional çaları dərinləşdirir. Poeziyanın oxucuya təsir gücünün artırılmasında şairlərin böyük rolu vardır. Bu mənada, məqalədə fonopoetik vasitələr nəzəri əsaslar və üslubi funksiyalar baxımından Nəbi Xəzrinin yaradıcılığı əsasında araşdırılır. Linqvistik, üslubi və poetik yanaşmalara əsaslanan tədqiqat göstərir ki, fonopoetik vasitələr adi dil faktı deyil, struktur baxımından obrazlılıq, emosionallıq, ritm və semantik çalarların formalaşmasına təsir edən əhəmiyyətli faktlardır.

AÇAR SÖZLƏR

fonopoetika, səs simvolizmi, poetik dil, ekspressivlik, poetik səs

MƏQALƏ TARİXÇƏSİ

Göndərilib: 08.04.2026
Qəbul edilib: 31.08.2026

[1]Filologiya üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Dövlət Universiteti. Azərbaycan
https://orcid.org/0009-0005-7756-8029 | asgerovaganira@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 78–87
https://doi.org/10.48445/p0860-7347-7719-u

The Role of Phonopoetic Devıces in Nabi Khazri's Language

Ganira Asgarova [1]

ABSTRACT
Phonopoetic devices are understood as sound-based expressive means that create or intensify meaning through phonetic realization. They occupy a central position in poetic language. Functioning at the intersection of sound, meaning, and emotion, these devices shape aesthetic impact and direct the reader's perception beyond the limits of purely lexical or grammatical meaning. The fulfillment of aesthetic and emotional functions by linguistic units constitutes one of the fundamental characteristics of poetic language. From this perspective, the interaction between the phonetic structure of language and meaning plays a significant role in the formation of artistic expression. The sound composition of a word in a literary text is not accidental; rather, it reinforces semantic content and deepens emotional nuance. Poets play a crucial role in enhancing the impact of poetry on the reader. In this sense, the role of phonopoetic devices is examined through the creative work of Nabi Khazri. The article analyzes phonopoetic devices from the standpoint of theoretical foundations and stylistic functions. Linguistic, stylistic, and poetic approaches demonstrate that phonopoetic devices are not merely ordinary linguistic facts, but structurally significant phenomena that influence the formation of imagery, emotionality, rhythm, and semantic nuances.

KEYWORDS
phonopoetics, sound symbolism, poetic language, expressiveness, poetic sound

ARTICLE HISTORY
Received: 08.04.2026
Accepted: 31.08.2026

[1]Doctor of Philosophy in Philology, Associate Professor, Nakhchivan State University. Azerbaijan
https://orcid.org/0009-0005-7756-8029 | asgerovaganira@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Poeziyada dil yalnız informasiya ötürən işarələr sistemi deyil, eyni zamanda, estetik təcrübə vasitəsidir. Bədii dilin ifadə imkanları arasında fonopoetik vasitələr xüsusi yer tutur, çünki onlar dilin ən fundamental səviyyəsində, yəni səs səviyyəsində fəaliyyət göstərir. "Tarixən fonetik-üslubi ifadə vasitələri, demək olar ki, dünyanın bir sıra dilləri üçün ümumi olmuş, zaman keçdikcə hər bir dilin yazılı abidəsində və folklorunda özünəməxsus yer tutmuşdur" (Hacıyeva, 2018, s. 4). Leksik və ya sintaktik vasitələrdən fərqli olaraq, fonopoetik vasitələr çox vaxt oxucuya və ya dinləyiciyə şüuraltı təsir göstərir, səs strukturlarının sistemli təşkili vasitəsilə emosiyalar, duyğu təəssüratları və qiymətləndirici münasibətlər yaradır. *Fonopoetika* termini mətndə fonetik xüsusiyyətlərin bədii funksiyasını öyrənən sahəni ifadə edir. Fonopoetik vasitələrə səs təkrarları, səs təqlidi, ritmik quruluşlar və səs-məna uyğunluqları daxildir ki, bunlar da nitqin ekspressivliyini artırır. Bu vasitələr poetika, üslubiyyat və koqnitiv dilçilikdə xüsusi əhəmiyyət kəsb edir. Çünki onlar səsin bədii mətnlərdə mənanın formalaşmasındakı rolunu üzə çıxarır. Dil insan təfəkküründün və ünsiyyətinin əsas vasitəsi olan mürəkkəb və çoxqatlı bir sistemdir. Bu sistemin əsas komponentlərindən biri səsdir. Səs dilin maddi əsasını təşkil edir və ilk baxışda yalnız formal vahid kimi görünür. Lakin dilin xüsusilə bədii funksiyasında səslər semantik və emosional yüklə çıxış edərək mənanın formalaşmasında fəal iştirak edir. Səs və məna münasibətləri dilçilik tarixində hər zaman mübahisə doğuran məsələlərdən olmuşdur. Səslə məna arasında müəyyən uyğunluqların mövcudluğunu araşdıran tədqiqatlar bu problemin aktuallığını qoruyub saxladığını göstərir. Məqalənin məqsədi fonopoetik vasitələrin bədii dildə rolunu, onların nəzəri əsasları, təsnifatı, funksional potensialı və spesifik təzahürləri prizmasından araşdırmaqdır.

Metodlar

Tədqiqatda deskriptiv-analitik, struktur-semantik və funksional-poetik metodlardan kompleks şəkildə istifadə edilmişdir. Araşdırmanın əsasını Nəbi Xəzrinin müxtəlif illərdə qələmə aldığı şeir və poemalar təşkil edir. Mətnlər fonopoetik baxımdan təhlil olunarkən səslərin semantik yükü, akustik xüsusiyyətləri və estetik funksiyası nəzərə alınmışdır. Təhlil prosesində kontekstual yanaşma əsas götürülmüş, fonopoetik vasitələrin mətnin ümumi ideya-məzmun strukturu ilə əlaqəsi müəyyən edilmişdir. Eyni zamanda, poetik dilçiliyin nəzəri müddəalarına əsaslanaraq fonetik ifadə vasitələrinin bədii-estetik funksiyası ümumiləşdirilmişdir.

Nəticələr

Aparılan tədqiqat göstərir ki, Nəbi Xəzrinin poetik dilində fonopoetik vasitələr sistemli və məqsədyönlü xarakter daşıyır. Şair yaradıcılığında səs vahidlərindən emosional-psixoloji təsiri gücləndirmək, ideya yükünü dərinləşdirmək məqsədilə istifadə edir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, səs-məna vəhdəti vasitəsilə şair mətnlərində ritmik ahəng, emosional gərginlik və mənəvi ovqat formalaşdırır. Xüsusilə müəyyən səslərin şeir mətnində intensiv şəkildə toplanması təbiət, zaman, vətən və insan amilləri ilə bağlı obrazların təsvirində fonosemantik uyğunluq yaradır. Bu isə Nəbi Xəzri poeziyasında ikoniklik prinsipinin mühüm yer tutduğunu göstərir.

Tədqiqat həmçinin sübut edir ki, fonopoetik vasitələr şairin dilində müxtəlif poetik funksiyaları yerinə yetirərək mətnin semantik bütövlüyünü təmin edir. Səslərin təkrarı və ritmik quruluşu poetik fikrin ardıcıllığını möhkəmləndirir, oxucunun mətnə emosional cəhətdən daxil olmasına şərait yaradır.

Nəticə etibarilə, Nəbi Xəzrinin poetik dili fonopoetik imkanlar baxımından zəngin hesab edilir və səslə məna arasında sıx əlaqə yaradan, milli poeziyanın estetik dəyərini artıran mühüm dil hadisəsi kimi qiymətləndirilir. Bu xüsusiyyət şairin yaradıcılığını poetik dilçilik baxımından əhəmiyyətli tədqiqat obyektinə çevirir.

Müzakirə

Azərbaycan dilçiliyində poetik fonetika ilə bağlı bir sıra araşdırmalar aparılmış, onun mahiyyəti haqqında maraqlı fikirlər irəli sürülmüşdür (Həsənova, 2023). Dilçi alimlər dilçilik elminin ictimai elm kimi formalaşmasında dilin fonetik quruluşunun əhəmiyyətini üstün dəyərləndirirlər. "Poetik dildə fonetika, şairin yaratdığı təəssüratları dərinləşdirən, mətnə ritmik ahəng qataraq oxucuya fərqli duyğular aşılayan bir dilcilik sahəsidir" (Cəfərova, 2025, s. 178). Məlumdur ki, ənənəvi dilçilik nəzəriyyəsində dil işarəsinin ixtiyari xarakteri əsas prinsip kimi qəbul olunmuşdur. Lakin səs simvolizmi və fonosemantika sahəsində aparılan tədqiqatlar göstərir ki, müəyyən səs və ya səs qrupları konkret hisslər və emosional mənalarla assosiasiya olunur. Bədii dil bu assosiasiyalardan fəal şəkildə istifadə edərək fonetik materialı ekspressiv vasitəyə çevirir. Dilçilikdə uzun müddət dil işarəsinin ixtiyari olması ideyası üstünlük təşkil etsə də, fonosemantika və fonopoetika sahəsində aparılan araşdırmalar səs və məna arasında müəyyən motivasiyalı əlaqələrin mövcudluğunu təsdiq edir. Xüsusilə bədii dildə səslərin seçimi və təşkili semantik yük daşıyır. Bu prosesdə ədəbi simaların böyük əməyi vardır. Xalq şairi Nəbi Xəzrinin yaradıcılığı bu baxımdan diqqəti cəlb edir. Şairin dilində bir sıra samitlərin (məsələn, *k* samitinin) sıx işlədilməsi gərginliyi, mübarizə semantikasını gücləndirir:

İlk həmdəmdir, ilk silahdır hər kəsə,
Əgər ki o, saf poladdan deyilsə,
Hər kəlməsi öz yerində deyilsə,
Qılınclardan daha kəskin olar söz
(Xəzri, 2004 , s. 11).

Və ya açıq saitlərin (xüsusilə də *a* və *o* saitinin) üstünlük təşkil etməsi genişlik, rahatlıq və emosionallıq hissi yaradır.

İnamsız yer ilə göy dağılardı,
Dəniz də coşmazdı çay olmasaydı.
Günəş də göylərdə yetim qalardı,
Əgər ulduzlarla Ay olmasaydı
(Xəzri, 2004, s.48).

Fonopoetik təhlil ideyasına görə, səs strukturları adi müşayiətedici funksiya daşımır, eyni zamanda semantik məzmunu gücləndirərək mənayaratma prosesində bilavasitə iştirak edir. "Hər hansı bir söz və ifadənin gözəlliyi təkcə onun mənası ilə deyil, eləcə də tərkibindəki səslərin ahəngdarlığı, mənaya uyğunluğu ilə əlaqəlidir" (Seyidova, 2022, s. 91). Nəbi Xəzrinin poeziyası səs və məna arasında müəyyən sistemli əlaqələrin mövcudluğunu təsdiqləyir.

Səs simvolizmi dildəki səslərin və ya səs qruplarının konkret məna və ya hisslərlə assosiasiya olunmasıdır. Müxtəlif dillərdə aparılan tədqiqatlar göstərir ki, məsələn, dilönü saitlər (incə saitlər) çox vaxt kiçiklik, incəlik, yaxınlıq; dilarxası saitlər isə böyüklük, ağırlıq və uzaqlıq anlayışları ilə əlaqələndirilir. Fonosemantik istiqamət səslərin təsadüfi deyil, müəyyən qanunauyğunluqlar əsasında mənaya təsir etdiyini göstərir. Bu prosesdə təkrar işlənən səslər diqqəti cəlb edir. "Səs təkrarları digər təkrar növləri kimi fikrin, emosiyaların dəqiq ifadəsi üçün əhəmiyyətli rola malikdir" (Hacıyeva, 2016, s. 20). Nəbi Xəzri səslərin akustik xüsusiyyətlərindən məqsədli şəkildə istifadə edərək emosional təsir oyadır, obrazlılıq formalaşdırır və mətndə estetik ahəng yaradır:

Söz ucaldar bu cahanda insanı,
Əzizləyər bu cahan da insanı.
Vaxt olar ki, bircə anda insanı
Əlli ilin hörmətindən salar söz
(Xəzri, 2004, s. 11).

Şeirdə səslərin düzümü diqqəti cəlb edir. "Bu cür səs düzümünün yaratdığı musiqi, ahəng söz birləşmələri, atalar sözləri, frazeoloji vahidlərin deyilişində özünü daha çox göstərir, başqa sözlə, həmin ifadələrin, bədii mətnlərin yaranmasında da eyni səslərin

təkrarından əmələ gələn fonetik hadisənin mühüm rolu olur" (Abdullayev, 2013, s. 175–176).

Məlumdur ki, alliterasiya, assonans kimi fonopoetik vasitələr səs və məna vəhdətinin konkret nümunələridir. Məsələn, sərt samitlərin sıxlığı dramatik gərginlik, axıcı saitlərin üstünlüyü isə lirizm və sakitlik təsiri yaradır:

Düşündüm, ayrılıq gələndən bəri
Sən mənim eşqimə çıraq olasan.
Onunçün verdin ki, mənə göyləri,
Məndən göylər qədər uzaq olasan?
(Xəzri, 2004, s. 50).

Səs vahidləri nitqin emosional fonunu müəyyənləşdirən əsas amillərdəndir. Eyni məzmun fərqli səslə təqdim edildikdə, oxucu və ya dinləyici üzərində yaratdığı təsir də dəyişir. Bu baxımdan səs məna ilə yanaşı, qiymətləndirici və emosional münasibətin ifadəsinə xidmət edir. İntonasiya, vurğu və pauzalar da səs və məna əlaqəsinin mühüm komponentləridir. Onlar mətnin semantik istiqamətini və emosional yükünü formalaşdırır:

Nə qədər xoş gəldi il dalınca il,
Əmək ömrümüzün mənası oldu.
Zülmətli çadradan səyrılan Sevil
Min belə Sevilin anası oldu.
Vurğun nəğməsilə aşıb-daşdı ki,
Zəhmət bulağından qızlar su içsin.
Bəsti tarlalarda şırım açdı ki,
Sevil o yerlərdən rahatca keçsin.
Onda bu torpağın qüdrəti vardı,
Elə bağlandı ki, elə, obaya....
Dünən doğulsaydı Həcər olardı
Bu gün Sevil kimi gəldi dünyaya
(Xəzri, 2010, s. 50).

Dildəki səslərin müəyyən emosional və ya obrazlı assosiasiyalar yaratması insan beyninin səsə verdiyi reaksiyalarla bağlıdır. Səs-məna əlaqələri dilin fonoloji sistemi və mədəni ənənələr əsasında formalaşır. Buna görədir ki, koqnitiv dilçilik səs və məna münasibətlərini insanın qavrayış və təfəkkür mexanizmləri ilə əlaqələndirir. "Azərbaycan dili zəngin fonetik vasitələrə malikdir. Bu, uzun tarixi inkişaf prosesində əmələ gəlmişdir" (Qurbanov, 2029, s. 76). Fonetik vasitələr içərisində dilin səslər sistemi əsas yer tutur. "Səsin məna ilə əlaqədar

olması, onların arasında müəyyən rabitənin və məzmun vəhdətinin mövcudluğu qədim dövrlərdən diqqəti cəlb etmiş bir məsələ olmuşdur" (İbrahimova, 2021, s. 7). Nəbi Xəzrinin yaradıcılığı göstərir ki, səs və məna arasındakı əlaqə dilin yalnız formal deyil, eyni zamanda semantik və estetik mahiyyətini də üzə çıxarır.

Dağların da ürəyində
Deyilməmiş sözü vardır.
Dağlar deyir: həyat nədir?
O, hünərdir...O, zəhmətdir,
Həqiqət var əfsanədir,
Əfsanə var, həqiqətdir
(Xəzri, 2010, s. 30).

Nəbi Xəzrinin yaradıcılıq nümunələri üzərindəki linqvistik araşdırmalar fonopoetik vasitələrin bədii dildəki funksiyalarını yetərincə təqdim edə bilir. "Nəbi Xəzri orijinal üsluba, özünə xas ifadə tərzinə mailk olan sənətkarlardandır" (Həsənova, 2017, s. 286). Onun dilində fonopoetik vasitələrin ekspressiv funksiyası öndə gəlir. Fonopoetik vasitələr emosional ifadəni gücləndirir, səs təkrarları və akustik qarşıdurmalar vasitəsilə sevinc, qorxu, qəzəb və ya sakitlik kimi hisslər leksik seçimdən daha təsirli şəkildə ifadə olunur:

Səhər... Keçib getdi çən də, duman da...
Səhər... Zirvələrdən bulud dağıldı.
Dağların başında günəş doğanda
Dağların qoynunda bir qız doğuldu.
Şəfəqlər üzünü yudu su kimi,
Analar övladla deyib-gülübdür.
Görəsən, Günəşin özü bildimi
Dünyaya ən yaxşı dostu gəlibdir?...
(Xəzri, 2010, s. 38)

Şairin dilindəki fonopoetik vasitələr obrazlılığın formalaşmasında mühüm rol oynayır, belə ki, səs strukturları duyğu təəssüratları yaradır. Eşidilən obrazlar poetik-estetik təsir əmələ gətirərək mətnin emosional dərinliyini artırır, bədii təsir gücünü yüksəldir, oxucunun mətnə həssaslıqla daxil olmasına imkan yaradır, fonopoetik və semantik ifadəliliyin vəhdətini üzə çıxarır. Bu baxımdan, Nəbi Xəzrinin dilində axıcı saitlərin yumşaqlıq və sakitlik yaratması təbiidir:

Payız... Ağır-ağır açıldı səhər,
Gəldi payız qədər
Qəmli bir xəbər,
Dedilər: Mil düzü qaldı Sevilsiz...
Yellər nəğməsini çaldı Sevilsiz,
Bu səhər
Dedilər
Mən inanmadım
(Xəzri, 2010, s. 26).

Fonopoetik vasitələr səs və məna oxşarlığı yolu ilə semantik məzmunu gücləndirir, sanki səsin özü mənanı xatırladır və ya təqlid edir. Bu isə mövzu bütövlüyünü və yaddaqalma effektini artırır. Şairin dilindəki səs təkrarları misralar, cümlələr və abzaslar arasında daxili bağlılıq yaradaraq motivlərin davamlılığını, ritm və intonasiyanı gücləndirir, obrazlararası əlaqə əmələ gətirir və nəhayət, mətnin bütövlüyünü təmin edir. Bu məsələdə səslərin ahəngi xüsusi rol oynayır. "Fonetik vasitələr nitq prosesində işlənmə yerinə, məqamına görə müəyyən üslubi mahiyyət kəsb edir ki, onlardan da ən başlıcası ahəngdarlıqdır. Ahəngdarlıq nitqin səlisliyi, gözəlliyi, onun dinləyənə xoş təsir bağışlamasıdır" (Təhməzova, 2023, s. 6). Oxucunun zövqü onun sayəsində formalaşır. Fonopoetik vasitələrin əsas rollarından biri estetik zövq yaratmaqdır. "Azərbaycan dilində digərlərinə nisbətən saitlərin ahəngi daha davamlıdır. Saitlərin ahənginin sayəsində şeirdə musiqililik təmin olunur, ona görə ki, söz kökünə şəkilçilər qoşularkən söz kökündəki saitlə şəkilçinin saiti bir-birilə uzlaşır" (Hacı-Əzizli, 2022, s. 351). Bədii dilin musiqililiyi onu gündəlik ünsiyyət dilindən fərqləndirən əsas cəhətlərdən biridir. Bu cəhətdən Nəbi Xəzrinin yaradıcılığı zəngindir:

Sən əzəldən könüllərə nur qatdın ki,
Torpaqlara qara çöksə, zülmət deyək.
Küt baltalı cəlladları çoxaltdın ki,
Pambıqla baş kəsənlərə rəhmət deyək?
Ulu Tanrım, çükür sənə!
(Xəzri, 2004, s.33).

Üslubiyyat çərçivəsində fonopoetik vasitələr ekspressiv fonetikanın tərkib hissəsi kimi qiymətləndirilir. Onlar müəyyən elementlərin bədii şəkildə vurğulanmasına xidmət edərək mətnin ön plana çıxmasına şərait yaradır. Alimlər dilin formal strukturunun istənilən aspektinin, son nəticədə, semantik motivləşməyə malik olduğunu qeyd edirlər (Kobzeva, 2010, s. 8). "Təbii ki, səs də, söz də, cümlə də məhz qarşılıqlı əlaqədə fikri ifadə edir" (Hacıyeva, 2022, s. 86). Bu baxımdan, bədii əsərdə fonetik üslubi vasitələr də mətnin yaranmasında mühüm rol oynayır. "Fonetik üslubi vasitələr oxucunun diqqətini ardıcıl söz

və cümlələrə cəlb edir" (Hüseynova, Ələkbərova, 2020, s. 32). Neytral səs modellərindən kənara çıxmaq və ya səs təkrarlarını intensivləşdirmək yolu ilə müəllif emosional və ya tematik baxımdan əhəmiyyətli məqamları diqqət mərkəzinə gətirir:

İnsanın yaxşısı, ya pisi kimdir?
– Sadəliklə olur ilahi insan.
– Dünyanın ən böyük dahisi kimdir?
– Ən adi insandır, ən dahi insan
(Xəzri, 2004, s. 45).

Nəbi Xəzrinin yaradıcılığı təsdiq edir ki, poeziya fonopoetik vasitələrin müəyyən bir məna, motiv, anlayış və ya dil vahidinin mətndə sıx, yığcam və intensiv şəkildə toplanaraq funksional intensivlikdə reallaşdığı sahədir. Bu vasitələr əsas ideyanın ön plana çıxarılmasında əhəmiyyətlidir.

Nəticə

Fonopoetik vasitələr bədii dilin ayrılmaz tərkib hissəsidir. Onlar adi fonetik elementlər deyil, mənanın qurulmasında, emosional ifadədə və estetik təşkilatda fəal rol oynayan dil vahidləridir. Nəbi Xəzrinin yaradıcılığında səs təkrarları ritm və intonasiya vasitəsilə semantik və sintaktik vasitələrdən fərqli ifadəlilik səviyyəsinə çatır. Fonopoetik vasitələrin rolunun dərk edilməsi bədii təhlili dərinləşdirir və söz sənətinin əsasını təşkil edən səs-məna vəhdətini üzə çıxarır. Bu səbəbdən fonopoetika mühüm tədqiqat sahəsi olaraq aktuallığını qoruyur.

Ədəbiyyat

1. Abdullayev, N. (2013). *Nitq mədəniyyətinin əsasları.* "Elm və təhsil".
2. Cəfərova, F. (2025). Aşıq dilində poetik fonetikanın üslub imkanları. *Mahmud Kaşğarlı Beynəlxalq Elmi Jurnal.* 3(8).
3. Hacı-Əzizli, M. (2022). Fonetikanın üslubi imkanlarının tədrisi üsulları. *"Dil və Ədəbiyyat"* jurnalı, №1. BDU.
4. Hacıyeva, N. (2016). *Azərbaycan dilində fonetik vahidlərin üslubi xüsusiyyətləri.* "Elm və təhsil".
5. Hacıyeva, N. (2022). Azərbaycan dilində dil oyunu. *Dilçilik araşdırmaları,* №2.
6. Hacıyeva, N. (2018). *Azərbaycan dilinin fonetik üslubiyyatı.* Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı.
7. Həsənova, S. (2017). *Dilimiz nənəvi kimliyimizdir*. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
8. Həsənova, S. (2023). Poetik fonetika. *"Naxçıvan" Universitetinin Elmi əsərləri,* № 2.

9. Hüseynova, G., Ələkbərova, K. (2020). Bədii mətndə üslubi vasitələrin mətnyaratma gücü. *Bakı Qızlar Universitetinin Elmi əsərləri,* 11(2).
10. Xəzri, N. (2004). *Seçilmiş əsərləri,* II cilddə, Ic. Bakı, Lider, 248 s.
11. Xəzri N. (2010). Seçilmiş əsərləri, 10 cilddə, I cild. "Şərq-Qərb".
12. İbrahimova, S. (2021). *Azərbaycan dilində leksik kateqoriyaların fonosemantikası.* Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı.
13. Qurbanov, A. (2019). *Müasir Azərbaycan ədəbi dili.* I cild (2 cilddə).
14. Seyidova, S. (2022). Üslubi fonetika və onun tədqiqi məsələləri. *Dilçilik araşdırmaları,* №1.
15. Təhməzova, M. (2023). İngilis dilinin fonetik üslubi vasitələrinin təhlili. "*Qədim diyar*, *5*(9).
16. Кобозева, И. М. (2010). *Лингвистическая семантика.* "Издательство URSS".